ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# Azərbaycanın üç şəhəri üçün Şəhər və Regional İnkişaf Strategiyaları

**Bakı, Azərbaycan (15 Dekabr 2005)—** 15 dekabr 2005-ci il tarixdə Asiya İnkişaf Bankı, BMT İnkişaf Proqramı və İqtisadi İnkişaf Nazirliyi tərəfindən Şəhərlər Alyansı Proqramı çərçivəsində ümumi dəyəri $548,000 olan Gəncə, Şəki və Mingəçevir şəhərlərini əhatə edəcək layihə üzrə qrant sazişi imzalanmışdır. Layihənin məqsədi strateji planlaşdırmanın və idarəetmənin yaxşılaşdırılması, eləcə də, bu məqsədlə zəruri resursların səfərbər edilməsi istiqamətində potensialın gücləndirilməsi vasitəsilə şəhər və rayonlarda iqtisadi inkişafın təmin edilməsi və şəhər yoxsulluğunun azaldılmasına dəstək verməkdən ibarətdir.

İnkişaf etməkdə olan dünya ölkələrində 100-lərlə şəhər Şəhər İnkişafı Strategiyası (ŞİS) prosesində iştirak edərək özlərinin infrastruktur, ətraf mühit və idarəetmə üzrə prioritet proqram və layihələrinin həyata keçirilmələrinə nail olmuşlar. Azərbaycanda həyata keçiriləcək Şəhərlər Alyansı layihəsi Cənubi Qafqazda həyata keçirilən belə tipli ilk layihə olacaqdır.

Asiya İnkişaf Bankının digər əlaqəli maliyyə vəsaitləri ilə birgə, bu innovativ pilot layihə $3.573.000 həcmində ümumi texniki yardım vəsaitinin cəlb edilməsinə imkan verəcəkdir. İsrail Səfirliyi də, Şəhərlər Alyansı layihəsində MASHAV proqramı çərçivəsində şəhər və regionların inkişafı üzrə təlimlərin keçirilməsi və mövcud potensialının gücləndirilməsi tədbirləri ilə iştirak edəcəkdir.

Tədbirdə İqtisadi İnkişaf Naziri Heydər Babayev demişdir ki, "İnkişafımızın hazırki mühüm mərhələsində Şəhər İnkişafı Strategiyası layihəsinin Azərbaycanda həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edən kiçik şəhərlərin inkişafını təmin ediləcək, bələdiyyələrin planlaşdırma və idarəetmə potensialı gücləndiriləcək və beləliklə də, Hökumətinin regional inkişaf və yoxsulluğun azaldılması kimi öhdəliklərinin yerinə yetirilməsində əvəzsiz imkan yaradacaqdır".

Şəhər İnkişafı Strategiyasının əsas istiqamətləri kiçik şəhərlərdə sosial infrastruktur, şəhər yerlərində su və kanalizasiya təchizatı, mikro-maliyyə, məcburi köçkunlərə yardım, enerji və nəqliyyat sahələri üzrə Asiya İnkişaf Bankınının kredit və texniki yardım proqramları, eləcə də, 2006-2015-ci illəri əhatə edəcək yoxsulluğun azaldılması üzrə yeni ümummilli strategiya ilə əlaqələndiriləcəkdir.

"Asiya İnkişaf Bankı bu mühüm layihəni özünün Azərbaycanın regional şəhərlərində davamlı fəaliyyətinin və yoxsulluğun aradan qaldırılması ilə bağlı üzərinə götürdüyü öhdəliyin əsas təməl daşı kimi görür" deyə Bankın Azərbaycandakı Ölkə üzrə Direktoru Metyu Vestfol bildirmişdir. O əlavə olaraq bildirmişdir ki, "Biz bu layihə çərçivəsində müəyyən ediləcək növbəti layihə və proqramların maliyyələşdirilməsinə yardım xəttimiz ilə cəld cavab vermək niyyətindəyik".

Layihə eyni zamanda Goğrafi İnformasiya Sistemi (CMS) texnologiyasının və peyk təsvirinin tətbiq edilməsini nəzərdə tutur, bu da, Şəhərlər Alyansı layihə üzrə işçi qrupunun torpağın istifadəsi, resursların və yoxsulluq vəziyyətinin xəritələnməsini həyata keçirməyə imkan verəcəkdir. 18 ay davam edəcək bu layihə Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (YAİİDP) Katibliyi tərəfindən idarə ediləcəkdir.

"BMT İnkişaf Proqramı olaraq, biz MDB məkanında ilk dəfə olaraq, bu layihə çərçivəsində Asiya İnkişaf Bankı ilə birlikdə İqtisadi İnkişaf Nazirliyini dəstəkləməklə Bakıdan

kənar şəhərlərdə regional inkişaf və yoxsulluğun azaldılması məqsədilə əməkdaşlıq layihəsinə qoşulmağımızdan məmnunluğumuzu bildiririk. Bu birgə layihə Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasına yardımçı olacaqdır"deyə BMT İnkişaf Proqramının Azərbaycan üzrə Rezident Nümayəndəsinin səlahiyyətlərini həyata keçirən Devid Eyzenberq qeyd etmişdir.

Şəhərlər Alyansı öz üzərinə şəhərlərdəki yoxsulluğu aradan qaldırmaq öhdəliyini götürmüş şəhərlərin və onların inkişaf üzrə tərəfdaşlarının qlobal koalisiyasıdır. Alyans strateji şəhər planlaşdırması və şəhərlərin ən yoxsul sakinlərinin həyat şəraitini yaxşılaşdırmaq üçün şəhər və ölkə miqyasında fəaliyyətə nail olmaq məqsədilə siyasi öhdəlik, tərəfdaşlıq və təlim şəbəkələrinin qurulmasına çalışır. Hazırki dövrə qədər Alyans $60 milyon dəyərində yardım və $6 milyard sərmayə qoyuluşu həyata keçirmişdir.

AİB-nin Azərbaycanda həyata keçirdiyi layihə və proqramlar haqda məlumat almaq üçün www.adb.org/azrm saytına baxa bilərsiniz.

Manilada yerləşən AİB özünü yoxsul təbəqələrin vəziyyətini davamiyyətli iqtisadi artım, sosial inkişaf və yaxşı idarəçilik vasitəsilə yaxşılaşdırmaqla Asiya və Sakit Okean – bunlardan 46-sı regiondandır. 2004-cü ildə o, müvafiq olaraq ümumi məbləği 5.3 milyard və 196.6 milyon ABŞ dolları olan kredit və texniki yardımı təsdiq etmişdir.

****

---

**Media Inquiries**

Lala Hajibayova
Tel: +994 12 496 58 00
Mob: +50 225 48 86 Email: lhajibayova@adb.org

**Electronic versions of ADB news releases**

ADB Online Media Center: media.adb.org
ADB web site: www.adb.org
AZRM web site: www.adb.org/azrm